

# SƏS BAYRAQ, HARAY BAYRAQ

Qanında bir qeyrət, təpər gəlirsə,
Doğulan, göz açan - oğuldu bayraq.
Min acı üstündə şirin gəlirsə,
Bayramdı, Novruzdu, noğuldu bayraq.

Qalxmağında, enməyində yaşayan,
Dalğasında könülləri oxşayan.
Yaddaşında ağrı yükü daşıyan
Sözdü, əfsanədi, nağıldı - bayraq.

Hədəfi gözündən düz vurmadısa,
Əsgər xain gözə bozarmadısa.
Şəhidin qanında qızarmadısa,
Rəngi soldu getdi, ağ oldu bayraq.

Məsləkin yanında özü təkdisə,
Vətən ağrısını tənha çəkdisə.
Yasasız bir millət, Vətən çökdüsə,
Dövlət sarayıdı - dağıldı bayraq!

Qüruru əyilməz, vüqarı yenməz,
Düzdən üz çevirməz, doğrudan dönməz.
Yanar ürəklərdə, işığı sönməz,
Neçə dərdin üstə dağ oldu bayraq!

Tikanlar üstündə oxudu bəlkə,
Bülbül sinəsini toxudu bəlkə...
Özü ölməzlərin ruhudu bəlkə,
Təmkindi, hikmətdi, ağıldı bayraq!

Qüruru ucalar ucalığında
Yenilməz qüdrəti qocalığında.
Vətənin kədərli, dərdli çağında
Ümidə, inama dağ oldu bayraq!

Neçə daş üstündə tarix yazıldı,
Demə ki, yazıldı, niyə az oldu?
İllər də göyərdi, fəsil yaz oldu,
Daş da gül toxudu - çağ oldu bayraq.

Al güllər bitirdi çəmənlər üstə,
Arzuda, istəkdə çimənlər üstə.
Göy üstə al gəldi, yaşılı dəstə,
Azadlıq bağçası - bağ oldu bayraq!

Səs bayraq, haray bayraq,
Ulduz bayraq, ay bayraq.
Qan çəkər boyçəkəri
Türk, turan, Altay bayraq.

Əli Rza XƏLƏFLİ

Kredo.-2018.-8 noyabr.-S.1.